# Şuşa uğrunda canından keçən əsgər

Şəhidlik - Vətən, torpaq, böyük amallar uğrunda heç tərəddüd etmədən şirin canından keçmək, özünü şüurlu şəkildə qurban verməkdir! Şəhidlik verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaq deməkdir. Şəhidlərin uğrunda canlarını fəda etdikləri azadlıq, müstəqillik o qədər qiymətlidir ki...

Azərbaycanımızın üçrəngli müqəddəs bayrağını səmaya ucaldan şəhidlərimizdən biri də Abbasov Nurhan Ələstan oğludur. O, 1991-ci il iyun ayının 17-də Gəncə şəhərində sadə, zəhmətkeş bir ailədə dünyaya göz acıb. Orta təhsilini K.D.Uşinski adına 29 saylı Gəncə şəhər orta məktəbində alıb. Yüksək əxlaqi dəyərləri ilə qohum-əqrəbanın, dost-tanışın, müəllimlərinin sevimlisi olub. Düşüncəsi, mədəniyyəti ilə ürəklərə yol tapıb. Evdə ata-ananın, məktəbdə isə müəllimlərin etimadını doğrultmuşdu. Orta təhsilini başa vurduqdan sonra "Vətən çağırır!", - deyib hərbi xidmətə yollanan Nurhan mərdliyi, saflığı ilə də hörmət qazanmışdı.

Anası Səidə xanım deyir ki, Nurhan general Polad Həşimovun şəhid olduğu gün müharibəyə könüllü qatılacağını bildirdi. Anasının qanının qaraldığını görəndən sonra cəbhəyə getməyəcəyinə



söz vermişdi. Lakin, bu, anasına təsəlli üçün imiş. 27 sentyabr 2020-ci il tarixdə başlayan döyüşlərə o da könüllü kimi qatılmışdı.

Nurhanın komandiri Zaur Qurbanov ölümündən sonra anasına bildirib ki, onun ən böyük arzusu Şuşanı görmək idi. Qəhrəmanın son arzusunun həyata keçməsinə lap az qalmışdı. Lakin o, Daşaltı-Şuşa istiqamətində əks-hücuma keçərkən düşmənlə qarşı-qarşıya gəlir. O, sinəsini Vətənə sipər etməyə söz verdiyi üçün güllədən yayınmağı ağlına belə gətirmədi. Bu güllə ondan ötsə də, döyüş yoldaşlarını haqlayacağını bilirdi. Özünü güllə qabağına verən Nurhan qəhrəmancasına şəhid oldu.

Böyüyüb boya-başa çatdığı Gəncəyə son gəlişi isə onu taniyan hər kəsin qəlbində niskilli xatirəyə döndü. Öz şəhidliyi ilə ölməzliyə qovuşan Nurhan Abbasov ölümündən sonra Azərbaycan Prezidentinin sərəncamları ilə "Vətən uğrunda", "Cəsur igid", "Şuşanın azad olunması" medallarına layiq görüldü.

Nəsillər dəyişsə də, şəhidimiz Nurhanın, vətənpərvər gəncimizin igidliyi unudulmayacaq. Haqqında neçə-neçə məqalələr yazılacaq, bədii əsərlərin qəhrəmanına çevriləcək. Çünki Vətən ona oğul, o isə Vətənə ana deyib getdi!

Başın sağ olsun, ana-Vətən! Daha bir gənc müqəddəsliyiniz uğrunda gözünü qırpmadan canını fəda etdi.

Nur içində yat, şəhid qardaşımız! Heç vaxt unudulmayacaqsınız!

*Aygül SADAYQIZI,*
*YAP Gənclər Birliyinin üzvü*

Azərbaycan.- 2021.- 2 sentyabr.- S.7.